“Təsdiq edirəm”
Rektor prof. E.B.Hüseynov

“18” iyun 2021-ci il

# SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ ÜZRƏ “ƏN YAXŞI DƏRSLİK VƏ DƏRS VƏSAİTİ” MÜSABİQƏSİNİN KEÇİRİLMƏSİ HAQQINDA

# ƏSASNAMƏ

Sumqayıt Dövlət Universitetinin
Elmi Şurasının 16.06.2021-ci il
tarixli iclasının (protokol № 09)
qərarı ilə təsdiq edilmişdir.

Sumqayıt - 2021

**Sumqayıt Dövlət Universiteti üzrə "Ən yaxşı dərslik və dərs vəsaiti" müsabiqəsinin keçirilməsi haqqında**

**ƏSASNAMƏ**

**1. Giriş**

1.1. **Sumqayıt Dövlət Universiteti üzrə "Ən yaxşı dərslik və dərs vəsaiti" müsabiqəsi** SDU-nun Elmi Şurasının 18.03.2021-ci il tarixli iclasında (protokol №06) təsdiq olunmuş "Sumqayıt Dövlət Universitetinin 2020-2025-ci illər üçün Strateji İnkişaf Planının həyata keçirilməsi ilə bağlı 2021-ci il üzrə Fəaliyyət Planının" 2-ci bəndi ilə universitetdə fənlərin tədrisini daha səmərəli təşkil etmək, müəllimlərin öz işlərinə məsuliyyətini və peşə sevgisini artırmaq məqsədilə keçirilir və fakültələr üzrə (yekunda universitet üzrə) ən yaxşı dərslik və dərs vəsaitlərinin (dərslik, dərs vəsaiti, metodik vəsait, laboratoriya işləri və s.: *bundan sonra* – ***Vəsait, Vəsaitlər***.) seçilməsini və qaliblərin mükafatlandırılmasını nəzərdə tutur.

1.2. Müsabiqə mexanizminin hazırlanması üzrə təşkilati məsələlər Redaksiya-nəşriyyat şurası, Tədris metodik şura, fakültə dekanları və kafedra müdirləri tərəfindən həyata keçirilir.

1.3. Bu Əsasnamə müsabiqənin keçirilməsi qaydalarını, sənədlərin və materialların təqdim olunması şərtlərini tənzimləyir.

**2. Müsabiqənin təşkili**

2.1. Müsabiqənin təşkilini və keçirilməsini obyektivlik və aşkarlıq şəraitində təmin etmək məqsədilə Rektorun əmri ilə Müsabiqə komissiyası yaradılır.

2.2. Müsabiqədə Sumqayıt Dövlət Universitetinin professor-müəllim heyətinin hər bir üzvü iştirak edə bilər.

2.3. Müsabiqəyə hər müəllifin (həmmüəllifin) yalnız bir vəsaiti qəbul olunur.

2.4. Müsabiqənin şərtlərinə cavab verən vəsaitlər kafedra iclasının protokolundan çıxarışla birlikdə fakültə metodik şurasına təqdim edilir.

2.5. Fakültə metodik şurası hər kafedradan yalnız ən yaxşı bir vəsaiti fakültə elmi şurasının qərarı ilə (protokoldan çıxarış və tələb olunan sənədlərlə birlikdə) Müsabiqə komissiyasına təqdim edir.

2.6. Müsabiqə komissiyası hər bir vəsaitin təqdimatını dinləyir, onu qiymətləndirir, qaliblərin təyin olunması və mükafata təqdim edilməsi barədə qərar qəbul edir.

2.7. Məsabiqənin keçirilməsi qaydaları, gedişatı və nəticələri barədə məlumatlar SDU-nun rəsmi elektron saytında yerləşdirilir.

**3. Vəsaitin təqdimatına və qiymətləndirilməsinə qoyulan tələblər**

3.1. Müsabiqəyə bakalavriatura və magistratura ixtisasları üzrə son 5 il ərzində nəşr olunmuş və hal-hazırda tədris prosesində istifadə olunan vəsaitlər təqdim oluna bilər.

3.2. Müsabiqəyə təqdim olunan vəsait aşağıdakı meyarlara cavab verməlidir:

3.2.1. Vəsaitin nəşrinə Azərbaycan Respublikası Təhsil Nazirliyi və ya SDU-nun Elmi şurası tərəfindən verilmiş icazə (qrif) olmalıdır.

3.2.2. Vəsait ixtisas üzrə Təhsil Proqramında qeyd olunan peşə hazırlığının tələblərinə cavab verməli və tədris olunan fənnin təsdiq edilmiş proqramı və sillabusu əsasında tərtib edilmiş olmalıdır.

3.2.3. Vəsaitin tərtibatı - titul vərəqi, annotasiya, mündəricat, ön söz, ədəbiyyat siyahısı, əlavələr və köməkçi göstəricilər müvafiq nəşr işlərinə qoyulan tələblərə uyğun olmalıdır.

3.2.4. Vəsaitin quruluşu - giriş, əsas hissə, nəticə, illüstrativ materiallar, cədvəllər, diaqramlar, qrafiklər, şəkillər və digər əyanı vasitələr məzmunun mənimsənilməsi üçün yararlı olmalıdır.

3.2.5. Əsasında məsafədən mühazirə, seminar (məşğələ) və yaxud laboratoriya dərslərinin aparılması üçün təqdimatlar, videodərslər hazırlanmış vəsaitlərə üstünlük verilir.

**4. Müsabiqəyə təqdim olunan sənədlər**

4.1. Təqdim edilən vəsaitin nəşr olunmuş nüsxəsi – 1 ədəd;

4.2. Təqdim edilən vəsait əsasında təqdimatların və videodərslərin (varsa) elektron variantı.

4.3. Təqdim edilən vəsaitdə həmmüəlliflərin (varsa) yaradıcılıq fəaliyyətlərinin bölgüsü haqqında öz imzaları ilə təsdiq etdikləri akt.

4.4. Vəsaitin bu Əsasnamənin 3-cü bəndində qeyd olunan tələblərə uyğunluğu barədə fakültə Elmi şurasının protokolundan çıxarış. (Protokoldan çıxarışa vəsaitin referatı əlavə olunur).

4.5. Vəsaitin referatına daxil edilən məlumatlar və izahlar aşağıdakılardır:

- Vəsaitin adı;
- Müəllif (müəlliflər) haqqında məlumatlar: Soyadı, adı, ata adı (şəxsiyyət vəsiqəsi əsasında); elmi dərəcəsi və elmi adı; iş yeri və vəzifəsi; telefon nömrəsi və elektron poçtu;
- Vəsaitin məzmunu və tərtibatı haqqında məlumat;
- Vəsaitin aid olduğu ixtisas və fənn haqqında məlumat;
- Vəsaitin əvvəllər nəşr olunan vəsaitlərlə müqayisədə fərqli və üstün cəhətləri haqqında məlumat;
- Vəsaitin varisliyi haqqında məlumat;
- Vəsaitin məzmununun elmi səviyyəsi haqqında məlumat;
- Vəsaitdə praktiki məsələlərin verilməsi və onların aktuallığının şərhləri;
- Vəsaitdə verilən materialın metodik səviyyəsi haqqında məlumat;
- Vəsaitdə müasir təlim texnologiyalarından istifadə haqqında izahlar;

- Vəsaitdən tədrisdə istifadə zamanı pedaqoji və psixoloji tələblər haqqında məlumat.

## 5. Təqdim olunan vəsaitlərə baxılma qaydaları, təsdiq olunma və mükafatlandırılma

5.1. Vəsaitlərin və müvafiq sənədlərin qəbulu üzrə elan olunmuş müddət başa çatdıqdan sonra Müsabiqə komissiyası onların siyahısını tərtib edir və müsabiqənin tələblərinə uyğunluğu haqqında ilkin ekspertizasını aparır.

5.2. Siyahıda olan hər bir vəsait qoyulan tələblər əsasında ayrılıqda müzakirəyə çıxarılır, müəllif (həmmüəlliflərdən biri) işin təqdimatını aparır, komissiya üzvləri tərəfindən müvafiq qiymətləndirmə aparılır (qeyd: təqdimatı digər maraqlı tərəflər də dinləyə bilərlər).

5.3. Bütün vəsaitlər üzrə təqdimatlar dinlənilir, qiymətləndirmə aparılır və sonda Müsabiqə komissiyası qaliblər haqqında qərar qəbul edir.

5.4. Müsabiqə komissiyası qaliblərin mükafatlandırılması barədə Universitet Elmi Şurası qarşısında vəsatət qaldırır.

5.5. Müsabiqənin qaliblərinə Sumqayıt Dövlət Universiteti üzrə "Ən yaxşı dərslik və dərs vəsaiti müsabiqəsinin qalibi" Diplomu və pul mükafatı təqdim olunur. Pul mükafatının məbləği Universitet Elmi Şurasının qərarı ilə tənzimlənir və Rektorun əmri ilə verilir. Pul mükafatı həmmüəlliflər arasında bu Əsasnamənin 4.3 bəndinə uyğun olaraq bölünür.

5.6. Müsabiqə qaliblərinə mükafatların təqdim olunması təntənəli şəraitdə keçirilir.

5.7. Müsabiqədə qalib seçilmiş vəsaitin nüsxəsi müəllifin avtoqrafı (həmmüəlliflərin avtoqrafları) ilə SDU-nun Elmi kitabxanasına təqdim edilir.

**Razılaşdırılmışdır:**

**Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektor:**
______________ **dos.N.H.Talıbov**

**İqtisadi məsələlər üzrə prorektor:**
______________ **N.İ.Hacıyev**

**Elm və innovasiyalar üzrə prorektor:**
______________ **prof.R.S.Məmmədov**

**Hüquqşünas:**
______________ **dos.Ə.A.Həsənova**